# Münxendəki dialoqda xeyir şər üzərində qələbə çaldı



***Məlum olduğu kimi, bu il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirəsi olmuşdur.***

Dövlətimizin başçısının müzakirə zamanı qətiyyətli mövqeyi, işğalçı ölkənin baş nazirinin cəfəng arqumentlərini faktiki alt-üst edərək, əsl həqiqətləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırması Azərbaycan əhalisinin ən müxtəlif təbəqələri, o cümlədən vətəndaş cəmiyyəti fəalları arasında dərin məmnunluq hissi doğurmuşdur. **"XXI Əsrin Qadınları" İctimai Birliyinin rəhbəri Mahirə Əmirhüseynova bu barədə dedi:**

–Fikrimcə, Münxendəki müzakirələrdə Qarabağ ilə bağlı əsl həqiqətlərin bir daha üzə çıxması xeyirin şər qüvvələr üzərində qələbəsidir. Çünki ermənilər uzun illər boyu əsl həqiqətləri dünya birliyindən gizlətməyə çalışıblar.

Onlar hər yerdə Azərbaycan xalqına qarşı böhtan və hədyanlar yağdırır, xalqımızı olmazın cinayətlərdə suçlayırlar. Halbuki, məhz erməni silahlı qaniçənləri XX əsrin ən amansız qətliamlarından olan dəhşətli Xocalı soyqırımını törədiblər və Azərbaycanın 20 faizdən çox ərazisini zəbt ediblər və hələ də işğal altında saxlayırlar. Düşünürəm ki, Münxendəki məlum müzakirələr zamanı erməni məkri və xisləti tamamilə ifşa olundu!

Bəli, dünyanın bütün şər qüvvələri həqiqət qarşısında acizdir. Azərbaycan xalqı haqlıdır, ona görə ki, haqq, ədalət bizim tərəfimizdədir. Azərbaycan dövləti heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Qoy ermənilərin başbilənləri bu barədə yaxşı fikirləşsinlər, yoxsa, sadəcə gec olacaq!

***Söhbəti qələmə aldı:***
***M. HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 20 fevral.- S.4.